

# Torpaqlarımızda İslam irsinin dağıdılması erməni vandalizminin göstəricisidir

***Ermənistan silahlı qüvvələri tərəfindən 30 ilə yaxın müddətdə işğal altında saxlanılan Qarabağ bölgəsi və ətraf rayonlarda ən çox dağıdılan mədəni irs nümunələri sırasında İslam dini abidələri – məscidlər, türbələr və digər inanc yerləri daha çox diqqət çəkir. Xüsusi əhəmiyyətə malik unikal abidələrə düşmənin bu cür barbar münasibəti dünya irsinə qarşı yönələn təhdiddir. Rəsmi məlumata əsasən, işğal edilmiş ərazilərimizdə tarixi-dini abidələrin ümumi sayı 403-dür. Onlardan 67-si məscid, 144-ü məbəd, 192-si isə ziyarətgahdır. Qəbiristanlıqların sayı isə 900-dən artıqdır.***

Yeri gəlmişkən, bir müddət bundan əvvəl Mədəniyyət Nazirliyi işğaldan azad olunan rayonlarda monitorinq aparıb və baxış keçirilən 49 obyektdən 28-nin işğalçılar tərəfindən tamamilə dağıdıldığı və yalnız qalıqlarının qaldığı aşkar edilib.

Ekspertlər bildirirlər ki, indiyədək dünyada müharibə və ya qeyri-müharibə şəraitində dini abidələrin təhqir olunmasına, məqsədli şəkildə dağıdılmasına nadir hallarda rast gəlinib və bu cür erməni barbarlığı artıq bütün dünyada ciddi əks-səda doğurub.

Bütün bunlar onu göstərir ki, Ermənistan xristianlığın dəyərlərini də qorumur. Belə ki, xristian dini dəyərlərində başqalarının məbədlərinə, müqəddəs məkanlarına qarşı vandalizm heç vaxt müsbət qarşılanmır. Ümumiyyətlə, düşmənin müqəddəs yerlərə qarşı bu cür çirkin hərəkətləri nə dinə, nə də insanlığa sığır.

Azərbaycan Prezidenti İlham Əliyev bütün bunlar barədə aprelin 8-də İslam Əməkdaşlıq Təşkilatının Baş katibi Yusif bin Əhməd əl-Osaymini qəbul edərkən, ətraflı bəhs edib. Dövlətimizin başçısı çıxışında erməni vandalları tərəfindən Azərbaycan torpaqlarının 30 il davam edən işğalı nəticəsində bir milyondan çox azərbaycanlının doğma yurd-yuvalarından didərgin salınması ilə bərabər, şəhər və kəndlərimizin də tamamilə yerlə bir edildiyini, tarixi və dini məkanların, məscidlərin, qəbiristanlıqların vəhşicəsinə dağıdıldığını bildirib. Ölkə rəhbəri deyib: "Bu, islamofobiyanın, Azərbaycanofobiyanın, vandalizmin təzahürüdür. Çünki dəfələrlə dediyim kimi, bizim şəhərlərimiz Birinci Qarabağ müharibəsi ərzində deyil, sonradan işğal dövründə dağıdılıb. Bu, bütün Azərbaycan və İslam irsini Azərbaycanın bu tarixi torpaqlarından silmək və həmin torpaqların mənşəyini dəyişdirmək üçün qəsdən yürüdülən siyasət idi...".

Ermənilərin bu əməlləri onlar üçün heç bir müqəddəs dəyərin olmadığını göstərir. Buna baxmayaraq, onlar çox zaman Azərbaycanı dini dözümsüzlükdə ittiham edir, həyasızcasına bizi din davası aparmaqda suçlayırlar. Halbuki Azərbaycan heç zaman din davası gerçəkləşdirməyib. Ölkəmizin ərazisində bütün dinlərə məxsus olan abidələr dövlət səviyyəsində qorunub, məscidlərlə yanaşı, sineqoqlar tikilib, yeni kilsələr inşa edilib. Hətta Bakı şəhərinin mərkəzində erməni kilsəsi dövlət tərəfindən qorunan abidələr siyahısına salınıb. Ermənilər isə, əksinə, İslam mədəniyyətinin incisi olan məbədləri dağıdıb, regionda dini müharibə məsələsini qızışdırmağa və bu münaqişəni xristian-müsəlman qarşıdırması kimi təqdim etməyə cəhd göstəriblər.

Əlbəttə, bütün dağıntılar məqsədli şəkildə edilib. Ölkə rəhbəri İslam Əməkdaşlıq Təşkilatının Baş katibi Yusif bin Əhməd əl-Osaymini qəbul edərkən, çıxışında vurğuladığı kimi, erməni vandalları tərəfindən Ermənistan ərazisindəki tarixi torpaqlarımızda, Qarabağda və ətraf rayonlarda azərbaycanlılara aid tarixi miraslar viran qoyulmaqla azərbaycanlıların bu ərazidəki mədəni kimliyinin itirilməsi məqsədi güdülüb. Bu torpaqlarda bütün milli izlərimiz silinməyə çalışılıb.

Türkiyə Prezident Administrasiyasının İçtimaiyyətlə Əlaqələr İdarəsinin rəhbəri Fahrettin Altun Ağdam Cümə məscidinə səfəri zamanı erməni vandalizminin nəticələri barədə deyib: "Buradakı zülmü, əziyyəti və barbarlığı gördük. Bu, bənzəri olmayan bir barbarlıqdır. Bunlara rəğmən, dünyanın, beynəlxalq təşkilatların necə ikiüzlü bir mövqe sərgilədiyini də gördük. Baxın, dünyanın mədəniyyət abidələrini qorumaq məsuliyyəti daşıyan ölkələrdən heç bir səs çıxmayıb. Ona görə də buradakı mədəniyyət abidələri məhv edilib. Bu abidələr, əslində, türklüyün və İslamın izlərini tamamən itirmək üçün ortadan qaldırılıb. Amma bunu bacarmadılar və bacara bilməyəcəklər. Çünki bu torpaqlar türklərin torpaqları, İslamın torpaqlarıdır".

Bu məqamda qeyd etmək yerinə düşər ki, Ermənistan Azərbaycan ərazilərini 30 il işğal altında saxlayıb talamaqla bərabər, həm də qeyri-qanuni şəkildə obyektlər inşa edib, dini tikililər istifadəyə verib. Məsələn, Cəbrayıl rayonunda işğala qədər yalnız etnik azərbaycanlılar məskunlaşıb. Burada heç bir zaman erməni yaşamayıb. Lakin işğal dövründə Ermənistan Cəbrayılda ibadətgah inşa edib və belə hallar digər rayonlarımızda da təkrarlanıb. Digər tərəfdən düşmən Azərbaycanın işğal olunmuş bölgələrində nəsillər boyu yaşayan azərbaycanlıların evlərini və mədəni irsini yerlə yeksan edib. Belə vəhşiliklə kifayətlənməyən işğalçı Azərbaycanın azad etdiyi ərazilərdə "mədəniyyət cinayətləri törətdiyini" kimi əsassız iddialar irəli sürüb. Bununla bağlı Azərbaycanın Xarici İşlər Nazirliyi Ermənistanın respublikamızın azad edilmiş ərazilərində "mədəniyyət cinayətləri" törətmək barədə əsassız iddialarına cavab verib: "Martın 25-də "BBC News" Azərbaycanın Cəbrayıl şəhərində "Erməni kilsəsinin yoxa çıxması" barədə xəbər yayıb. Bu cür ittihamları ciddi şəkildə nəzərdən keçirir, lakin UNESCO üzrə Ermənistan milli komissiyasının Azərbaycan tərəfindən hər hansı bir "mədəniyyət cinayəti" törədilməsi barədə iddialarını qətiyyətlə rədd edirik.

Azərbaycan Respublikası mədəniyyətin və dini müxtəlifliyin qorunmasına sadiqliyini dəfələrlə təsdiqləyib və bu, dəyişməz olaraq qalır.

...2017-ci ildə Azərbaycan Respublikasının Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatına (ATƏT) müraciətindən sonra ATƏT-in Minsk qrupunun həmsədrləri Cəbrayıldakı ibadətgahı ziyarət etməyi qəbul ediblər. Azərbaycan Respublikası erməni qüvvələrinin işğal olunmuş ərazilərimizin demoqrafik, mədəni və fiziki xüsusiyyətlərini dəyişdirməsindən ciddi narahatlığını bildirib. ATƏT-in Minsk qrupunun həmsədrləri bu səfərdən sonra ibadətgahın Cəbrayıldakı hərbi birləşmənin bir hissəsi olaraq erməni əsgərləri tərəfindən istifadə edilməsi üçün tikildiyi qənaətinə gəliblər.

Yalnız beş il əvvəl tikilən və inşası tam şəkildə Ermənistanın işğalçı qüvvələrinə xidmət etmək məqsədi daşıyan ibadətgah Cəbrayılın mədəniyyət tarixinin bir hissəsi hesab oluna bilməz...".

Xarici İşlər Nazirliyinin şərhində daha sonra bildirilir ki, Azərbaycanın bir vaxtlar işğal altında olan ərazilərinin dağıdılmasının beynəlxalq media tərəfindən geniş işıqlandırılması və bu ərazilərin, hətta "Ruhlar şəhəri" və ya "Qafqazın Xirosiması" kimi adlandırılması Ermənistanın vandalizmini, Azərbaycanın tarixi, mədəni və dini irsinin dövlət səviyyəsində dəstəklənən qəsdən məhv edilməsi siyasətini açıq şəkildə göstərir.

Erməni vandallarının xarabazara çevirdikləri əzəli-əbədi yurdlarımızın bərpası, inkişaf axarına qovuşması, sosial-iqtisadi dirçəlişi indi dövlətimizin qarşısında duran ən mühüm vəzifədir. Dövlətimizin başçısı hər zaman bütün məsələlərdə olduğu kimi, bu istiqamətdə də aydın planlara, strateji hədəflərə malikdir.

Prezident İlham Əliyev işğaldan azad edilən ərazilərimizə əvvəlki səfərlərində, eləcə də martın 15-də Füzuli və Xocavənd rayonlarında olarkən, bu barədə ətraflı danışıb. Dövlətimizin başçısı deyib: "Yenə azad edilmiş torpaqlardayıq. Füzulidən Xocavənd rayonuna gedirik. İşğaldan azad edilmiş Xocavənd rayonuna gedirik. Yol boyunca bütün yaşayış məntəqələrinin dağıdılmasının bir daha şahidi oluruq. Bütün kəndlər, şəhərlər tamamilə dağıdılıb. Özü də bu dağıntılar müharibədən sonra baş vermişdir. Müharibə dövründə – Birinci Qarabağ müharibəsi dövründə bu qədər dağıntılar olmamışdır, ola da bilməzdi. Məhz işğal dövründə mənfur düşmən bizim şəhərlərimizi bu hala salıb.

Bura Füzuli şəhəridir. Amma şəhərdən əsər-əlamət qalmayıb. Şəhər yoxdur, dağıdılıb. Ermənilər dağıdıblar. İşğal dövründə gəlib bizim binalarımızı söküb, binaların daşlarını, damlarını aparıblar, oğru kimi, talançı kimi. Bunlar, Füzuli şəhərinin qalıqlarıdır. Bu gün də Ermənistanı müdafiə edən xarici dairələr gözlərini açıb baxsınlar onların vəhşiliyinə. Onlar kimi müdafiə edirlər?!".

Dövlətimizin başçısı daha sonra otuz il torpaqlarımızı işğal altında saxlayan mənfur düşmənin daşı-daş üstdə qoymadığını, tarixi irsimizi sildiyini, hətta yollara belə baxımsız münasibət bəslədiyini bildirərək, bir daha xatırladıb: "Onların bütün təbliğatı yalandır, bütün tarixi saxtadır. Özlərini dövlət adlandırırdılar, dırnaqarası "Artsax dövləti" – cəhənnəmə getdi. "Dövlət" idisə, bəs, niyə daş-daş üstə qoyulmayıb? Çünki bilirdilər ki, bu torpaq onların deyil. Bu torpaq azərbaycanlıların torpağıdır".

Dövlətimizin başçısı daha sonra deyib ki, düşmən Azərbaycanın qədim torpaqlarında özləri üçün saxta tarix yaradıb. Amma buna nail ola bilməyib. Onlar bu əməllərinə görə ifşa edilib: "Bu kilsənin – alban məbədinin də bu vəziyyətdə olması bir daha erməni saxtakarlığını göstərir. Erməni kilsəsi olsaydı, bunu təmir etdirərdilər. Sonra da bəziləri bizə irad tuturlar ki, biz xristian abidələrinə yaxşı baxmırıq. Bunu ermənilər bu günə salıblar".

İşğaldan azad olunan ərazilərdə yerləşən abidələrin demək olar ki, hamısı acınacaqlı vəziyyətdədir. Bu hal Ermənistan Respublikasının digər dinlərə münasibətini və həqiqi simasını əks etdirir. Eyni zamanda, bu vandalizm faktı ümumilikdə dünyanın mədəni irsinə barbar münasibət olduğundan beynəlxalq təşkilatlar, tərəqqipərvər dünya birliyi tərəfindən kəskin qınaq obyektinə çevrilməli, hüquqi qiymətini almalıdır. Amma, təəssüf ki, bu cür vəhşiliyə susqunluqla yanaşılır. Təəccüblü hal isə odur ki, hazırda müəyyən dövlətlər erməni yalanlarına inanır, onların təkcə Azərbaycana yox, bütün dünyaya və insanlığa qarşı bəşəri cinayətlərinə qarşı biganə münasibət bəsləyirlər.

Prezident İlham Əliyev İslam Əməkdaşlıq Təşkilatının Baş katibi Yusif bin Əhməd əl-Osaymini qəbul edərkən, çıxışının sonunda Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə kontakt qrupun üzvlərinin bu yaxınlarda işğaldan azad edilmiş ərazilərə səfər etdiklərini, erməni vandalları tərəfindən törədilən vəhşiliklərin şahidi olduqlarını xatırladaraq deyib: "İndi biz bütün dünyanın bunu görməyini, başa düşməyini istəyirik ki, bizim atdığımız addımlar haqq işi idi, beynəlxalq hüquqa, BMT-nin Nizamnaməsinə, özünümüdafiə hüququmuza və ədalətə əsaslanırdı. Biz ədaləti bərpa etdik. Təcavüzkar bizim torpaqlarımızdan qovuldu və indi bərpa vaxtıdır. Lakin bu, vaxt aparacaq. Çünki əlbəttə ki, ən böyük problem minalardır. Müharibə bitəndən sonra bizdə artıq onlarla itki olub, o cümlədən minalardan ölənlər olub. Ermənistan bizə minaların xəritəsini verməyib. Bu, daha bir müharibə cinayətidir...".

Dövlətimizin başçısı çıxışının sonunda hazırda düşməndən təmizlənən ərazilərdə minatəmizləmə prosesinin aparıldığını, bununla paralel yenidənqurma işlərinə başlanıldığını, şəhər və kəndlərin baş planlarının hazırlandığını vurğulayıb, eyni zamanda, İslam dünyası nümayəndələrinin Azərbaycana gəlib işğalçının tarixi irsimizə qarşı vəhşiliyin şahidi olmaları və yenidənqurma prosesini izləmələri ilə bağlı istəyini də diqqətə çatdırıb.

***V.BAYRAMOV,***
***"Xalq qəzeti"***

Xalq qəzeti 2021.- 15 aprel.- S.8.